ELM VƏ ALİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

# Qazaxıstanda Təhsil

# Hökumətlərarası Təqaüd Proqramı (HTP) - 2025/2026

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"ə uyğun olaraq, Qazaxıstanın Elm və Ali Təhsil Nazirliyi 2025/2026-cı tədris ili üzrə Azərbaycan vətəndaşları üçün təqaüd proqramı elan edir:




| | |
|---|---|
| Ümumi məlumat və müraciət forması | 2-3 |
| Maliyyələşmə | 3 |
| Müsahibə mərhələsində iştirak üçün əsas meyarlar | 3-5 |
| Tələb olunan sənədlər | 5-6 |
| Əlaqə | 6 |
| Bunları bilirsinizmi? | 6-7 |

**Ümumi Məlumat**

**Təhsil səviyyələri və kvotalar:** bakalavriat (3 yer); baza ali tibb təhsili (2 yer); magistratura (5 yer); doktorantura (2 yer).

**Tədris dili:** qazax, rus və ya ingilis.

**Prioritet ixtisas istiqamətləri:**

- informasiya və kommunikasiya texnologiyaları, mühəndislik, emal və tikinti sənayesi - 5 nəfər;
- kənd təsərrüfatı və bioresurslar, incəsənət və humanitar elmlər, sosial elmlər, jurnalistika və informasiya, biznes, idarəetmə və hüquq - 5 nəfər;
- səhiyyə və sosial təminat (tibb) ixtisasları – 2 nəfər.

**Müraciət üçün son tarix: 01.05.2025-ci il**

**Müraciət forması:**

- Təqaüd proqramına müraciət edəcək iddiaçılar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elektron ərizə sisteminə müraciət etməlidirlər - https://portal.edu.az/
  - Elektron qeydiyyatı düzgün şəkildə tamamlamış, bu elanın ümumi tələblərinə cavab verən namizədlər fərdi şəkildə keçiriləcək onlayn müsahibəyə dəvət olunacaqlar;
- Onlayn müsahibənin dəqiq vaxtı barədə məlumat namizədə elektron sistem və SMS vasitəsi ilə bildiriləcəkdir;
- Müsahibə üçün təyin olunmuş vaxta 15 dəqiqədən çox gecikən şəxslər müsahibəyə buraxılmayacaqdır;
- Hər bir namizədlə keçiriləcək onlayn müsahibə 10-15 dəqiqə ərzində davam edir, müsahibənin video-qeydiyyatı aparılır;
- Seçim nəticələrinə dair apellyasiya şikayəti verilməsi nəzərdə tutulmur;
- Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (EATDA) tərəfindən namizədliyi təsdiq olunmuş şəxslərin adları Qazaxıstan tərəfinə təqdim ediləcəkdir;
- EATDA tərəfindən təklif olunan və təsdiq üçün Qazaxıstan tərəfinə göndərilmiş namizədlərin sənədləri müraciətlərində qeyd etdikləri ali təhsil müəssisələrinə* seçim sıralamasına uyğun olaraq göndəriləcəkdir;

- *Ali təhsil müəssisələrinin seçim qaydaları bir-birindən fərqlənir və qəbul daxili qaydalarla tənzimlənir. Göstərilmiş universitetlərdən heç birinə qəbul ola bilməyən namizədlərin təqaüd hesabına təhsili mümkün olmayacaqdır.

- Tələbələrin təqaüd proqramına qəbulu ilə bağlı yekun qərarın 2025-ci ilin yay ayları ərzində təqdim olunması gözlənilir.

**Maliyyələşmə:**

- Təhsil haqqı;
- Tədris vəsaitləri;
- Tibbi xidmət;
- Qazaxıstan tərəfinin milli qanunvericiliyinə uyğun olaraq yataqxanada yerləşmə;
- Aylıq təqaüd;

  Qeyd: Qəbul edən tərəfin milli qanunvericiliyinə uyğun olaraq mübadilə iştirakçılarına təqaüd verilir. Təqaüd məbləğləri ilə bağlı ətraflı məlumatı keçiddən əldə etməyiniz mümkündür.
- Nəqliyyat xərci.

  Qeyd: Azərbaycan vətəndaşlarının ildə bir dəfə gediş-gəliş xərcləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən qarşılanır.

Namizədlərin müraciət edə biləcəkləri universitet və proqramların siyahısı ilə keçiddən tanış olmaq mümkündür.

**Müsahibə mərhələsində iştirak üçün əsas meyarlar**

Namizədlər yalnız aşağıdakı tələblərə cavab verdikləri təqdirdə fərdi müsahibə mərhələsində iştirak hüququ əldə edəcəklər:

- Bakalavriatdan sonrakı təhsil səviyyələrinə müraciət edən iddiaçıların ali təhsil haqqında diplom üzrə ixtisasın xaricdə oxumaq üçün seçdiyi ixtisaslara uyğun olması tövsiyə olunur (ixtisasların uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 dekabr 2024-cü il 503 nömrəli Qərarı ilə təsdiq edilmiş ixtisasların təsnifatına əsasən müəyyən olunur);
- İddiaçıların seçdiyi hər bir ixtisasın eyni ixtisas istiqaməti üzrə olmağı tövsiyə olunur;
- Bakalavriat və ya magistratura təhsil səviyyələri üzrə təhsil almaq istəyən şəxslər ölkənin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu üzrə aparılan test imtahanları

çərçivəsində texniki və texnoloji, təbiət, kənd təsərrüfatı, səhiyyə, rifah və xidmət, əsas (baza ali) tibb təhsili və xüsusi təyinatlı ixtisas qrupları üzrə yekun olaraq ən azı 350, digər sahələr üzrə ən azı 400 bal toplamalıdırlar;

- 2024/25-ci tədris ili üzrə ümumtəhsil müəssisələrindən məzun olacaq Dövlət İmtahan Mərkəzi (DİM) imtahanlarında iştirak etməyən iddiaçıların (əvvəlki illərin məzunları da daxil olmaqla) akademik göstəricilərini sübut edən beynəlxalq səviyyədə tanınan imtahan və ya beynəlxalq olimpiada nəticələri (SAT, qızıl/gümüş/bürünc medal sahibi və s.) həmin sahə üzrə mümkün olan ən yüksək göstəricinin 65%-indən az olmamalıdır;
- DİM imtahanlarında iştirak etməyən əvvəlki illərin məzunu olan iddiaçıların öncəki bənddə tələb olunan göstərici ilə yanaşı, attestat üzrə cari müvəffəqiyyət dərəcəsinin orta balı 100 ballıq sistem üzrə isə 61 (və ya bunun ekvivalenti) baldan aşağı olmamalıdır. DİM imtahanlarında iştirak etmiş orta ixtisas diplomu olan şəxslərə də bu qayda aid edilir;
- Ölkənin yerli ali təhsil müəssisələrində bakalavriat, magistratura və ya doktorantura səviyyələrində təhsil alan şəxslər təhsillərinin 50%-dən çoxunu tamamlamamış olmalıdır;
- Magistratura səviyyəsinə müraciət edən iddiaçıların əvvəlki təhsil səviyyəsi üzrə ÜOMG 100 ballıq sistem üzrə 61 baldan aşağı olmamalıdır. Hazırda təhsil aldığı eyni səviyyə üzrə müraciət edən iddiaçıların cari ÜOMG də 100 ballıq sistem üzrə 76 və ya 4 ballıq sistem üzrə 3.3 baldan aşağı olmamalıdır;
- "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-cı illər üçün Dövlət Proqramı" çərçivəsində təhsil almış, lakin Elm və Təhsil Nazirliyi ilə imzaladığı müqaviləyə əsasən, 5 il ərzində ölkədə işləmək öhdəliyini yerinə yetirməmiş məzunların sənədləri qəbul edilməyəcəkdir;

  Qeyd: "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü bəndinə əsasən (...dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir), Azərbaycan ali təhsil müəssisələrində yaxud xaricdə dövlət hesabına ("2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-cı illər üçün Dövlət Proqramı" və hökumətlərarası müqavilələr yolu ilə) təhsil almış şəxslər eyni təhsil səviyyəsi üzrə yenidən müraciət edə bilməzlər.

**Qeyd:** Namizədlər, bir akademik ildə ilkin seçimi EATDA tərəfindən aparılan yalnız bir ölkənin təqaüd proqramına müraciət edə bilərlər. Bu qayda yalnız müvafiq təqaüd proqramının müsahibə mərhələsinə buraxılmış şəxslərə şamil edilir.

**Tələb olunan sənədlər:**

- Ərizə forması (keçid);

  Qeyd: Rus və ya ingilis dilində doldurulmuş Qazaxıstan tərəfinin ərizə forması HTP elektron ərizə sistemi üzrə "qəbul sənədi" hissəsinə yüklənməlidir.
- CV (rus və ya ingilis dillərində, maksimum 2-3 səhifə);
- şəxsiyyət vəsiqəsinin rus və ya ingilis dilinə tərcümə-təsdiq olunmuş surəti;
- ümumvətəndaş pasportunun ilk 3 səhifəsinin surəti;
- sağlamlıq haqqında arayış (N86) və QİÇS (HIV/AIDS) xəstəliyinin olmamasına dair tibbi arayışın rus və ya ingilis dilinə tərcümə-təsdiq olunmuş surəti;
- attestat və ya orta ixtisas diplomunun (bakalavr dərəcəsinə müraciət edənlər üçün) rus və ya ingilis dilinə tərcümə-təsdiq olunmuş surəti;
- bakalavr təhsili üzrə diplom və diploma əlavənin (magistratura dərəcəsinə müraciət edənlər üçün) rus və ya ingilis dilinə tərcümə-təsdiq olunmuş surəti;
- bakalavr və magistratura təhsili üzrə diplom və diploma əlavənin (doktorantura dərəcəsinə müraciət edənlər üçün) rus və ya ingilis dilinə tərcümə-təsdiq olunmuş surəti;
- Hazırda təhsil aldığınız təhsil müəssisəsi tərəfindən verilmiş təhsil aldığınıza dair arayış (qəbul olunduğunuz və məzun olacağınız tarix göstərilməklə) və ən son tarixli transkript/fənlər üzrə akademik göstəricilərin rus və ya ingilis dilinə tərcümə-təsdiq olunmuş surəti;
- Doktorantura təhsil səviyyəsinə müraciət edənlər üçün tədqiqat işinə dair qısa xülasə (2 səhifə/Times New Roman-da yazılmış), eyni zamanda namizəd müsahibə mərhələsinə dəvət ediləcəyi təqdirdə, tədqiqat aparacağı ixtisas sahəsi üzrə "tədqiqat təklifinə" dair təqdimatla (ppt) çıxış edir;
- 2 ədəd 3x4 rəngli fotoşəkil;
- Motivasiya məktubu (250-500 sözlük, qazax, rus və ya ingilis dilində);
- Məhkumluq barədə arayış (rus və ya ingilis dilinə tərcümə-təsdiq olunmuş);
- Tövsiyə məktubu (rus, qazax və ya ingilis dilində);

- Dil sertifikatı (tədris dili ingilis dilində olan ixtisaslar üçün  min İELTS 6.0, tədris dili rus dilində olan ixtisaslar üçün rus bölməsi üzrə təhsili aldığını təsdiq edən sənəd).

**Əlaqə**

Təqaüd proqramı ilə bağlı suallarınızı htpinfo@eatda.edu.az elektron ünvanına  göndərə edə bilərsiniz.

**Qazaxıstan ali təhsilinin uğurları ilə bağlı**

**bunları bilirsinizmi?**

**Əl-Fərabi Qazax Milli Universiteti (KazNU)**

- Daha çox bakalavriat, magistratura və doktorantura təhsil pillələri üzrə **filologiya** və **hüquq** ixtisaslarının tədrisi sahəsində ixtisaslaşmışdır;
- **"QS World University Ranking 2025"** – ə əsasən dünya universitetləri arasında **163-cü** yeri tutur;
- Universitetin məşhur məzunları arasında Qazaxıstanın keçmiş xarici işlər naziri Kairat Abdrakhmanov, Qazaxıstanın keçmiş təhsil naziri Bakhytzhan Zhumagulov və Qazaxıstanın əmək və əhalinin müdafiəsi naziri Gulzhana Karagusova yer alır;
- Hər il universitetdə davamlı olaraq müxtəlif dillərdə danışan yerli və xarici tələbələri bir araya gətirən və onlara müxtəlif mədəniyyətlər haqqında fikir mübadiləsi aparmağa şərait yaradan tədbirlər keçirilir;

**L. N. Qumilyov adına Avrasiya Milli Universiteti (ENU)**

- Daha çox bakalavriat, magistratura və doktorantura təhsil pillələri üzrə **mühəndislik** və **təbiət elmləri** sahəsində ixtisaslaşmışdır;
- **"QS World University Ranking 2025"** – ə əsasən dünya üzrə **321-ci** yeri tutur;
- Universitetin məşhur məzunları arasında Zhenis Kassymbek (siyasətçi), Aleksandr Vinokorov (dünyaca məşhur velosipedçi) yer alır.

## K.İ. Satpayev adına Qazax Milli Texniki Araşdırma Universiteti

- Daha çox bakalavriat, magistratura və doktorantura təhsil pillələri üzrə **neft-sənaye** və **texnologiya mühəndisliyi** sahəsində ixtisaslaşmışdır;
- **"QS World University Ranking 2025"** – ə əsasən dünya universitetləri siyahısında **405-ci** yeri tutur;
- Universitetin məşhur məzunları arasında Qazaxıstan Respublikasının İqtisadiyyat Naziri Baxyt Sultanov, Qazaxıstan Respublikasının Xarici İşlər Naziri Beibut Atamkulov və məşhur siyasətçi Asqar Jumagaliyev yer alır.

## M. Əvəzov adına Cənubi Qazaxıstan Dövlət Universiteti

- Daha çox bakalavriat, magistratura və doktorantura təhsil pillələri üzrə **təbiət elmləri**nin tədrisi sahəsində ixtisaslaşmışdır;
- **"QS World University Ranking 2025"** – ə əsasən dünya universitetləri sırasında **621-630-cu** yeri tutur;
- Universitetin məşhur məzunları arasında Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyasının Prezidenti Murat Zhurinov, Qazaxıstan Kənd Təsərrüfatı Nazirinin Müavini və eyni zamanda Parlamentin üzvü Nurzhan Altayev yer alır.